UOT 330.8:339:339.543 (479.24)

# XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxili və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələr



**Səməndərov Seyfəddin Sabir oğlu***
iqtisad elmləri üzrə fəlsəfə doktoru, AMEA, İqtisadiyyat İnstitutu

## Xülasə

*Tədqiqatın məqsədini* - XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda (Azərbaycan SSR) daxili və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələrinin tədqiqi təşkil edir.

*Tədqiqatın metodologiyası* - təhlilin sintez və deduksiya metodları.

*Tədqiqatın nəticəsi* - Azərbaycan iqtisadi fikrinin inkişaf tarixi ilə əlaqədar dəyərli məlumatların əldə olunmasına şərait yaradır.

*Tədqiqatın məhdudiyyətləri* - tarixi faktların müasir meyarlarla əlaqəli şəkildə dəyərləndirilməsidir

*Tədqiqatın praktiki əhəmiyyəti* - daxili və xarici ticarət, gömrük işinin təşkili praktikasında tarixi təcrübədən yararlanılması təşkil edir.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - tədqiq edilən problem və bir çox faktlar ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, xarici ticarət, daxili ticarət, gömrük işi, proteksionizm*

## 1. Giriş

Azərbaycanın ən qədim zamanlardan etibarən beynəlxalq iqtisadi əlaqələrin inkişafında mühüm rolu olmuşdur. Şərq və Qərb dünyasının qovuşduğu coğrafiya Azərbaycan ərazisidir desək yanılmarıq. Bu gün də Azərbaycan təbiətin ona verdiyi

* Bakı şəhəri, AZ 1143 Hüseyn Cavid pr., 31.
seyfeddinsamandarov@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

və layiq olduğu öz ənənəvi missiyasına qovuşmuşdur. Təbiidir ki, iqtisadi əlaqələrdə daxil olmaqla insan cəmiyyətini, beynəlxalq münasibətləri daxili və xarici ticarət-iqtisadi əlaqələrin və gömrük işinin tənzimlənməsi olmadan təsəvvür etmək mümkün deyil. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxili və xarici ticarət, gömrük işinin təşkili və bununla əlaqədar bir sıra fikirlərin nəzərdən keçirilməsi təsadüfi deyildir. Çünki məlumdur ki, bu illərdə sözügedən sahələrdə aparılan institusional dəyişikliklər və onun şərhi ancaq bir marağa, bolşevik ekspansiyasının gerçəkləşdirilməsinə xidmət edirdi. XX əsrdə Azərbaycan iki dəfə total keçid dövrünü yaşamışdır. Birinci keçid dövründə, yəni XX əsrin 20-30-cu illərində kapitalizmdən sosializmə keçid dövründə milli müstəqilliyimizin totalitar rejim tərəfindən qəsb olunması baş vermişdir. İkinci keçid dövrü XX əsrin 90-cı illərində yaşanmışdır və Azərbaycan yenidən öz müstəqilliyinə qovuşmuşdur. Hər iki keçid dövrünün assimetrik bənzərlikləri vardır. Bu bənzərliklərin nəzərdən keçirilməsi müvafiq sahələrdə dövlətçilik praktikasının inkişaf etdirilməsi, milli maraqların qorunması və iqtisadi təhlükəsizliyin təmin olunması baxımından faydalı ola bilər.

## 2. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxili ticarət sahələrində institusional situasiya

Azərbaycanda sovet dövlətinin ticarət siyasəti 1921-ci ilin may ayında Azrevkomun ərzaq saplağının ləğvi ilə başlanılır [4, s. 6]. Qeyd etmək lazımdır ki, 1920-1921-ci illərdə Azərbaycan SSR-də hərbi kommunizm siyasəti ilə əlaqədar daxili ticarət xeyli məhdudlaşmış, əmtəə qıtlığı mövcud idi, dövlət müəssisələri xammalla pulsuz təmin olunur, onların məhsulu tədavülə daxil olmadan dövlətin sərəncamına keçirdi. Bu səbəbə görə dövlət daxili ticarət orqanlarının yaradılması zərurətini hiss etmirdi [1, s. 16].

Xarici Ticarət Komissarlığı yaradılana kimi ticarət məsələləri ilə məşğul olan yeganə orqan Ali Xalq Təsərrüfatı Şurası - AXTŞ idi. Daxili və xarici ticarət məsələlərini həll etmək üçün AXTŞ-nin Rəyasət Heyəti Nəzarət-yükboşaltma, Qaçaqmalçılıqla Fövqəladə mübarizə Komissiyası və s. kimi komissiyalar yaratmışdı. 1920-ci il iyunun 1-də Azərbaycan İnqilabi Komitəsi - Azrevkom xarici ticarətin inhisara alınması, iyunun 3-də isə daxili ticarətin azad olması haqqında dekretlər qəbul etsə də, eyni zamanda möhtəkirlərə qarşı sərt mübarizə aparılacağı da bəyan edilirdi [6, s. III]. Daha sonra 1920-ci il iyunun 5-də Xəzər ticarət donanmasının milliləşdirilməsi haqında dekretin qəbul olunması, iyunun 8-də isə AXTŞ-nin xırda gəmi sahibkarlarına ittifaq yaratmaq barədə göstəriş verməsi də diqqətimizi cəlb edir [6, s. V]. Lakin bütün bunlara baxmayaraq istər daxili istərsə də xarici ticarətdə tədqiq edilən illərdə özəl sektorun çəkisi xeyli yüksək idi. 1921-1922-ci illərdə Azərbaycanın ümumi əmtəə dövriyyəsində kooperasiyanın payı şəhərdə 10-15%, kənddə 3-5% idi. 1922-ci ildə respublikada ticarət dövriyyəsinin 30%-i dövlət

və kooperativ müəssisələrin vasitəsi ilə, 70%-i isə xüsusi şəxslər (*sovet ədəbiyyatlarında fəaliyyətləri alverçilər kimi qiymətləndirilən*) vasitəsi ilə həyata keçirilirdi. Həmin illərdə respublikada fəaliyyət göstərən 9216 ticarət müəssisəsinin 112-si dövlətə, 135-i kooperativ ticarət qurumlarına, 8969-u isə xüsusi mülkiyyətçilərə məxsus idi [3, s. 35, №4, 1972].

Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, 1921-1925-ci illərdə respublikada daxili dövlət ticarət təşkilatları başlıca olaraq dövlət trestlərindən və SSRİ dövlət ticarət təşkilatları, trestlərin Azərbaycandakı kontor və müvəkkilliklərindən ibarət idi. Bu müvəkkilliklərdən Azərbaycan dövlət ticarətində, çörək məhsulları tresti, toxuculuq tresti, ümumrusiya dəri sindikatı, Zaqafqaziya pambıq komitəsi, Zaqafqaziya dövlət ticarəti idarəsi, qənd tresti əhəmiyyətli rol oynayırdı. Bu təşkilatlar Azərbaycanda əsasən topdansatış ticarətlə məşğul olur, respublika dövlət ticarətində üstün mövqedə idilər. Daha sonra Azərbaycan Xalq Sənaye və Ticarət Komissarlığı 1922-ci ildə yaradıldı. İyulun 13-də Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən təsdiq edilmiş əsasnaməyə görə bu təsisatın vəzifəsi aşağıdakılar idi; buraya dövlət, ictimai, xüsusi sənaye və ticarəti tənzimləmək və inkişaf etdirmək; dövlət müəssisələri idarəsinə tabe olan müəssisələrin istehsal proqramı və smetalarının icrasına nəzarət; nəqliyyat idarəsinin işinə ümumi nəzarət işi daxil idi. 1923-cü ildə aprel ayının 1-də Azərbaycanda ən iri istehsal birliyi olan “Azneft“in məhsullarını satmaq üçün Azərbaycan neft ticarəti birliyi yaradıldı. Eyni zamanda 1922-1923-cü illərdə bir sıra sahələr üzrə - Azərbalıq, Azərşərab, Azərparça, Azərtütün birlikləri yaradıldı. Həmin müəssisələrin Bakı və digər rayonlarda satış bazarları, mağaza və dükanları var idi. Bu idarə və təsisatlar yerli ticarət orqanları kimi fəaliyyət göstərirdilər. 1923-1924-cü illərdə artıq respublikada 55 dövlət ticarəti müəssisəsi fəaliyyət göstərirdi [1, s. 16-17; 4, s. 6-7].

Azərbaycanda daxili ticarətin tənzimlənməsi üçün 1923-cü ilin fevralında Azərbaycan SSR Xalq komissarlarının tərkibində Daxili ticarət Komitəsi yaradıldı. Komitə qiymətlərin tənzimlənməsi, əmtəə dövriyyəsinin mənfəətliliyi, birja və yarmarkaların fəaliyyətinin tənzimlənməsi ilə məşğul olmalı idi. 1924-cü ildə Azərbaycanda Daxili Ticarət Komitəsi əvəzinə Zaqafqaziya Daxili Ticarət Komissarlığının Nümayəndəliyi yaradıldı. Nümayəndəlik ticarət konyunkturası, kooperativ və xüsusi mülkiyyət müəssisələrindən məhsulların alınması işlərinin nizamlanması ilə məşğul olurdu. 1924-cü ildə Moskva, Leninqrad, Tbilisi şəhərləri də daxil olmaqla bütün ölkədə geniş ticarət şəbəkəsi olan “Azərticarət” yaradıldı [4, s. 6-8].

1924-cü il aprelin 1-dən Azərbaycan SSR Xalq Komissarları Sovetinə Zaqafqaziya hüdudlarında neft və neft məhsullarının istehlakçılara satışında inhisar hüququ verən səlahiyyətlər verildi. Burada Zaqafqaziya dəmir yolu, hərbi idarələr, su nəqliyyatı idarəsi neft məhsulları ilə təmin edilmək üçün Neft sindikatına deyil, Bakıya Azərbaycan Xalq Təsərrüfatı Şurasına “Azərnefticarətə” müraciət etməli idilər. Qeyd etmək lazımdır ki “Azərneft ticarət”in səhmdar cəmiyyət kimi əsas-

naməsi 1924-cü ildə martın 10-da təsdiq edilmişdi. Bu quruma Ali İqtisadi Şuranın razılığı ilə səhmlərin, obliqasiyaların, payların alınması, digər müəssisələrə kapital qoyuluşu, onların birgə istifadəsində iştirak etmək səlahiyyətləri verilmişdi [8, s. 27, №7, 1924].

Azərbaycanda olan dövlət ticarəti orqanlarını mərkəzləşdirmək və güclü ticarət təşkilatı yaratmaq üçün 1924-cü il iyunun 1-də Azərbaycan Dövlət Ticarət Şirkəti yaradıldı. Onun mərkəzi idarəsi Bakıda yerləşirdi. Şirkətin 500 min manatlıq əsas kapitalı var idi. Əsas təsisçiləri və payçıları Azərbalıq, Azərbaycan Neft Ticarəti Birliyi, AXTŞ, Azərşərab, Azərbaycan Dövlət Kənd təsərrüfatı Bankı idi. Şirkətin Gəncədə, Lənkəranda, Ağdaşda, Zaqatalada və eyni zamanda Moskva, Leninqrad, Tiflis kimi şəhərlərdə də şöbələri var idi. Xüsusi və dövlət ticarətinin mərkəzləşdirilmiş qaydada tənzimlənməsinin təşkili istiqamətində görülən tədbirlərdən biri kimi 1923-cü il yanvarın 21-də Azərbaycan SSR AXTŞ-nın qərarı ilə şura nəzdində daxili ticarəti tənzimləyən komissiyanın yaradılması qeyd oluna bilər. Azərbaycan SSR Ali Daxili Ticarət Komissiyası 1923-cü ilin fevralında həmin ilin may ayına qədər fəaliyyət göstərmiş, istehlak malları qiymətlərinin müəyyənləşdirilməsi, pulun dəyərinin sabitləşdirilməsi, bazarın dövlət və kooperativ ticarət strukturları tərəfindən mənimsənilməsi işinin təşkili ilə məşğul olurdu. Çox keçmir daxili ticarətə nəzarət edən daha geniş imkan və hüquqları olan orqan Zaqafqaziya üzrə Vahid Xalq Daxili Ticarət Komissarlığı, 1924-cü ilin may ayında isə Azərbaycanda da Xalq Daxili Ticarət Komissarlığı yaradıldı. XDTK-nin tərkibində ticarət müfəttişliyi də yaradılmışdı ki, bu qurumun əsas vəzifəsi daxili bazara dövlət nəzarətinin gücləndirilməsini həyata keçirmək idi. Komissarlıq daxili bazar konyunkturasını müəyyənləşdirmək, dövlət, kooperativ ticarəti təşkilatları və xüsusi şəxslərdə olan mal ehtiyatlarını, kooperasiyanın satış qabiliyyətini, ticarət formalarının xüsusi çəkisini müəyyənləşdirməyə başladı. XDTK-nin fəaliyyəti sayəsində kooperativlərə mal buraxan məntəqələrin sayı və dövlət krediti artırıldı. Xüsusi Topdansatış ticarətçilərinə dövlət müəssisələrindən mal verilməsi dayandırıldı. Xüsusi xırda satış ticarəti ilə məşğul olanlara mal buraxılması məhdudlaşdırıldı. Yeni yaradılmış bazar komitələri xırda xüsusi ticarətə yerlərdə nəzarəti daha da gücləndirdi. Nəticədə dövlət ticarətinin xüsusi çəkisi və dövriyyə göstəriciləri getdikcə yüksəlməyə başladı [1, s. 16-19].

Bununla yanaşı Ali İqtisadi Şuranın tərkibində daxili ticarətlə əlaqədar məsələlərin yönləndirilməsi baxımından da müvafiq qurumlar yaradıldı. Bu xüsusda 1924-cü il 21 yanvar fərmanı ilə Azərbaycan SSR Ali İqtisadi Şuranın tərkibində Daxili Ticarət Komissiyasının yaradılması göstərilə bilər. Komissiya Azərbaycan SSR ərazisində daxili ticarətə rəhbərlik etməli idi [8, s. 29, №3, 1924]. Ali İqtisadi Şuranın yanvarın 21-dəki digər fərman ilə Ali İqtisadi Şuranın tərkibində Xammal Komitəsi yaradılırdı. Komitə bir çox məhsulların istehsalı və ticarəti ilə əlaqədar məsələləri araşdırmaqla məşğul olmalı idi. Sərəncam Ali İqtisadi Şuranın müavini

D.Bünyadzadə və R.Xoyskinin (katib) imzası ilə verilmişdir [8, s. 30, №3, 1924]. Martın 6-da Bakı Soveti və Ali İqtisadi Şuranın daxili ticarət komitəsi birgə qərar qəbul etdilər. Qərarda bütün xüsusi ticarətlə məşğul olan tacirlərə tapşırılırdı ki, un (*bütün növləri*), düyü, çay, şəkər yağ, tütün, ət, pambıq-parça, ayaqqabı, kerosin, hazır paltar məhsullarının qiymətlərini dükanda hər kəsin görə biləcəyi bir yerdən assınlar. Qərarın icrasına Bakı Sovetinin tərkibindəki müvafiq yarım şöbə məşğul olmalı idi [8, s. 21, № 4, 1924].

Qeyd etmək lazımdır ki, sonrakı illərdə artıq özəl sektor ticarət fəaliyyəti sferasında dövlət və kooperativ sektorları tərəfindən sıxışdırıldı. Məsələn 1924/25-ci illərdə ticarət dövriyyəsində xüsusi kapitalın payı 30,2%, 1927/28-ci illərdə 26,8%, olmuşdu [3, s. 37, №4, 1972].

Bu xüsusda tədqiq edilən illərdə kooperativ ticarət sektoruna bir qədər daha ətraflı diqqət yetirilməsi yerinə düşərdi. Qeyd edildiyi kimi Azərbaycan SSR-də dövlət və xüsusi ticarət sektorları ilə yanaşı kooperativ ticarət sektoru da mövcud idi.

1920-ci il mayın 20-də Azrevkomun dekreti ilə Xəzəryanı Kooperasiya İttifaqı Azərbaycan İstehlak Kooperasiyasına çevrildi (*"Azərittifaq"*). Azərittifaq respublikada bütün kooperasiyaları birləşdirirdi [4, s. 9]. Daha sonra 1920-ci ilin iyununda Azərbaycan SSR Xalq Ərzaq Komissarlığı tərkibində "Qlavkoop"-Kooperativ işləri üzrə Baş Komitə yaradıldı. Bu Komitə kooperativ işlərini idarə edən dövlət orqanı idi. 1922-ci ildə Azərbaycanda 146 istehlak kooperasiyası var idi. 1923-cü ildə Azərittifaq beynəlxalq kooperasiya Alyansına üzv oldu. 1925-ci ildə respublikada 253 kooperasiya 919 ticarət müəssisəsinə sahib idi [4, s. 11].

Ümumiyyətlə 1921-1925-ci illərdə Azərbaycanda daxili ticarəti iki inkişaf mərhələsinə bölünür. Birinci mərhələ 1921-1923-cü illəri əhatə edir. Bu mərhələdə xüsusi ticarət, xırda satış ticarəti yüksələn xətlə inkişaf edir və bunun səbəbi Yeni İqtisadi Siyasətlə əlaqələndirilir. İkinci mərhələdə 1924-1925- ci illərdə isə dövlət və kooperativ tədricən öz mövqelərini gücləndirməyə başladı [1, s. 55].

## 3. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda xarici ticarət sahəsində institusional vəziyyət

Sovet hakimiyyətinin ilk günlərində Azərbaycan İnqilab Komitəsinin nəzdində Xarici Ticarət şöbəsi yaradılmışdı. Bir qədər sonra bu qurum AXTŞ-nin ticarət şöbəsinə çevrildi. Lakin 1920-ci ilin iyulunda Rusiya Sovet Federativ Sosialist Respublikasının Xarici Ticarət Komissarlığı yaradıldıqdan sonra Azərbaycanda da belə orqanın yaradılması gündəmə gəldi [1, s. 87-91; 4, s.19].

Yeni yaradılmış qurum Azərbaycanda 1921-ci ilin dekabr ayına qədər fəaliyyət göstərdi və qısa müddətdən sonra fəaliyyətsizlikdə ittiham edilərək ləğv edildi. Xarici Ticarət Komissarlığı, AXTŞ-nin ticarət şöbəsi İtaliya, İsveçrə, Fransa firmaları ilə bağlanılmış ticarət müqavilələrinə görə bu ölkələrin firmalarından 166,8 min funt

sterlinq məbləğində mal almış, əvəzində xalça, ipək, barama, xəz və digər məhsulları göndərmişdi. Bu müqavilələrdən əlavə Xarici Ticarət Komissarlığı xarici firmalarla 1,5 milyon funt sterlinq məbləğində digər ticarət müqavilələri bağlamışdı. Müqavilələr əsasında Almaniyadan 60 min ədəd elektrik lampası, sabun, ayaqqabı, elektrik avadanlığı, kənd-təsərrüfatı alətləri, qənd, çay, əhəng və s. Azərbaycana gətirilmişdi. Eyni zamanda İranla ticarət əlaqələrini yaratmaq üçün 3 ticarət ekspedisiyası da təşkil edilmişdi. Həmin dövrdə Komissarlığın 200 nəfərdən ibarət idarəetmə aparatı fəaliyyət göstərirdi. Lakin çox keçmir 1922-ci ildə mart ayının 12-də Vahid Zaqafqaziya Xarici Ticarət Komissarlığı yaradıldı. Bu qurumun yerlərdə əməliyyat aparan orqanları - ticarət şöbələri yaradıldı [1, s. 123; 4, s.20].

Eyni zamanda tədqiq edilən illər ərzində Azərbaycan Respublikasının Sovet İttifaqının xarici iqtisadi əlaqələrində iştirakı məsələsi də diqqəti cəlb edir.

Azərbaycandan ixrac olunan əsas məhsulların neft məhsulları olduğunu söyləmək olar. Lakin neft və neft məhsulları ilə yanaşı Azərbaycandan ixrac olunan digər məhsullar kimi balıq, kürü, biyan kökü məhsulları göstərilə bilər. Nümunə üçün qeyd etmək olar ki, 1929-cu ildə Azərbaycandan 11 min t. balıq məhsulları ixrac olunmuş, bu göstərici isə SSRİ-dən ixrac olunan balıq məhsullarının 1/4 hissəsini təşkil edirdi. Digər maraqlı fakt kimi SSRİ büdcəsinə 1925-1935-ci illərdə biyan kökünün ixracından 6 milyon rubul qızıl pulun daxil olması qeyd oluna bilər. Lakin sovet iqtisadi ədəbiyyatlarında həmin illərdə xarici ticarət balansının passivliyi xüsusi olaraq vurğulanırdı [1, s. 123]. Göründüyü kimi tədqiq edilən illərdə xüsusən də xarici ticarət sferasında instituonal situasiya və həyata keçirilən siyasət, respublikanın maddi resursları və sərvətlərinin ixracının Moskva tərəfindən birbaşa inhisara alınmasına yönəldilmişdi.

## 4. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda gömrük işinin təşkili ilə əlaqədar institusional situasiya

1920-ci il 28 aprel dövlət çevrilişindən sonra Rusiya Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə etmək imkanı qazandı. Sovet Rusiyasının təhəmmül etmədiyi məsələlərdən biri də ilk azərbaycanlı kommunist liderlərinin qismən müstəqil xarici siyasət yürütmək meylləri, Rusiyanı xəbərdar etmədən Qərbi Avropa firmaları ilə iqtisadi əlaqələri bərpa etmək niyyətləri, respublikadan xarici ölkələrə neft, pambıq, yun və s. kimi strateji məhsulların ixrac olunmasının davam etdirilməsi idi. Rusiya tərəfindən həyata keçirilən siyasətin əsas məğzini Azərbaycanın xarici ticarət əlaqələrinə tam nəzarəti ələ keçirmək təşkil edirdi və bunun üçün də ilk tədbirlər qismində respublikanın gömrük idarələri və məntəqələrinə nəzarət etmək üçün ardıcıl siyasət yürüdülürdü. Belə tədbirlərdən biri də Azərbaycan Dəniz yoluna daxil olan Yalama stansiyasını Rusiyanın Petrovsk stansiyasının tabeçiliyinə verilməsi, Rusiyanın regionda öz maraqlarına münasib ticarət siyasətinin yürüdülməsinin təmin

olunması idi. Bu məqsədlə Rostov Baş Gömrük İdarəsinin əməkdaşı Bakı gömrükxanası ilə danışıqların aparılması üçün iyul ayının 9-da Bakıya gəlmişdi. Bu ərəfədə Azərbaycan SSR-də gömrük işi Azərbaycan SSR Xalq Maliyyə Komissarlığının tabeçiliyində olan Gömrük İdarəsi tərəfindən idarə olunurdu və sözügedən İdarənin rəisi A.T.Qolovoy idi. Baxmayaraq ki, gömrükxanalarda və aparılan sənədləşmələrdə işlər artıq rus dilində aparılırdı, Moskvanı narahat edən məsələlərdən biri də bu sahədə çalışanların əksəriyyətinin azərbaycanlı olması idi. Qeyd etmək lazımdır ki, 1920-cu ilin sentyabrında imzalanmış RSFSR və Azərbaycan SSR hökumətləri arasında saziş bütünlükdə Azərbaycan SSR-in xarici ticarət əlaqələrinin Rusiya ilə razılaşdırmaq məcburiyyətində olmasını və müvafiq olaraq xarici ticarət və gömrük idarə və məntəqələrinə Moskvanın nəzarət etməsini təsbit edirdi. Rusiyanın təzyiqi ilə bağlanmış saziş Azərbaycanın hərbi və iqtisadi müstəqilliyinə son qoyurdu.

Artıq 13 oktyabr 1920-ci ildə RSFSR XTXK-nin Operativ Gömrük İdarəsinin işçisi M.M.İvanov Azərbaycan Respublikası ilə birləşmənin formalarını aydınlaşdırmaq üçün xüsusi mandat alır. Eyni zamanda Cənub Gömrük Dairəsinə 25 oktyabr 1920-ci ildə Azərbaycanla sərhəddə gömrükxanaların yaradılmasının dayandırılması haqqında teleqram daxil olur.

Bu istiqamətdə növbəti addım kimi isə Azərbaycanla Rusiya arasındakı xarici ticarət əlaqələrini ölkə daxili əlaqələrə aid edilməsi haqqında Xarici İşlər Xalq Komissarlığının iqtisadi-hüquq şöbəsinin xüsusi göstərişinin yerlərə göndərilməsi göstərilə bilər (*9 dekabr 1920-ci il, №1412/2099/II*). Bu müqavilənin şərtlərinə görə Xəzər dənizi boyu və İranla sərhəddə aşağıdakı gömrük təşkilatlarına fəaliyyət göstərməyə icazə verilirdi (*22.XII.1920*).

İranla sərhəddə fəaliyyət göstərəcək gömrük təşkilatlarının siyahısı:

| | |
|---|---|
| *I. Xəzər dənizinin sahilində:* | 4. Saturlu zastavası; |
| 1. Petrov gömrükxanası; | 5. Biləsuvar zastavası; |
| 2. Dərbənd postu 4 | 6. Bəhram-təpə zastavası; |
| 3. Bakı gömrükxanası; | 7. Altan zastavası; |
| 4. Kür (*Ust-Kurinski*) postu; | 8. Maralyan zastavası; |
| 5. Qızıl-Ağac postu; | 9. Cəbrayıl zastavası |
| 6. Lənkəran gömrükxanası; | 10. Ordubad zastavası; |
| *II. Quru sərhədi boyu:* | 11. Culfa postu; |
| 1. Astara gömrükxanası; | 12. Culfa gömrükxanası; |
| 2. Gilvəz zastavası; | 13. Bulqan zastavası; |
| 3. Aruz zastavası; | 14. Şahtaxtı gömrükxanası. |

Artıq 1921-ci ilin əvvəllərində Azərbaycanın gömrük orqanları bütünlüklə Rusiyanın tabeçiliyində idi və orqanlar Azərbaycanın öz vətəndaşlarına, xaricə gedərkən əşya aparmağa icazə verməyə səlahiyyətinin olub-olmaması barədə mərkəzə sorğular göndərməyə başladılar.

Daha sonra 1921-ci ilin əvvəllərində Bakı gömrükxanasının strukturuna diqqətin yönəldilməsi yerinə düşərdi. Buraya daxil olmuşdur:

1) Dəftərxana;
2) Müsadirə şöbəsi;
3) Mühasibat;
4) Gəmi kontoru.

Eyni zamanda, 1922-ci ilin mart ayından etibarən Azərbaycanda gömrük strukturları yaranmaqda olan sovetlər imperiyasının 8 gömrük ərazisindən birinə - Zaqafqaziya dairəsi strukturlarına daxil edildi.

Bu ərəfədə 1922-ci ildə avqustun 25-də  Azərbaycan SSR Xalq Komissarları Sovetinin qəbul etdiyi 11 bənddən ibarət dekretdə də Azərbaycan Sovet Sosialist Respublikasının Gömrük orqanı Zaqafqaziya Gömrük İdarəsinin tərkibinə daxil edilməsi və onun vasitəsi ilə RSFSR gömrük orqanına birləşdirilməsi nəzərdə tuturdu. Qəbul olunan dekretin bəndlərində ölkənin gömrük siyasəti sahəsindəki bütün hüquqları alınaraq Rusiya Federasiyasına verilirdi [2, s. 21-17].

Göründüyü kimi gömrük idarələri əvvəlcə Xalq Maliyyə Komissarlığı, 1922-ci ilin payızında isə Zaqafqaziya Ticarət Komissarlığı nəzdində vahid Zaqafqaziya gömrük dairəsinin tərkibində fəaliyyət göstərməyə başlamışdı. 1923-cü il sentyabrın 15-də Zaqafqaziya Xarici Ticarət Komissarlığı ZSFSR-in Xalq Komissarları Şurası yanında SSRİ Xalq Xarici Ticarət Komissarlığının Müfəttişliyi İdarəsinə çevrildi. 1922-ci ilin avqustunda Zaqafqaziya Xarici Ticarət Komissarlığının ticarət şöbələri əvəzində Zaqafqaziya idxal-ixrac dövlət kontorları yaradıldı [1, s. 87-91].

## 5. Azərbaycanda iqtisadi ədəbiyyatlarda ticarət məsələləri ilə əlaqədar səslənən fikirlər

Azərbaycan SSR-də iqtisadi ədəbiyyatlarda ticarət məsələləri ilə əlaqədar səslənən fikirlərin nəzərdən keçirilməsi üçün tədqiq edilən illərdə nəşr olunan Azərbaycan SSR Ali İqtisadi Şurasının həftəlik nəşr orqanı "İqtisadi Xəbərlər" jurnalında dərc edilən materiallara müraciət olunmuşdur. Öncə diqqəti "Q.N." imzası ilə (*qeyd etmək lazımdır ki, sözügedən dərgidə dərc edilən materiallar Azərbaycan Ali İqtisadi Şurasının və digər təsərrüfat orqanlarının məsul işçiləri idilər*) 1921-ci il noyabrın 15-də "Ticarət etmək lazımdır" başlığı altında nəşr edilən məqalə cəlb edir. Məqalədə yazılırdı ki, bütün müəssisələrdə pul və digər maddi vəsaitlərlə təchiz edilməsi işi dövlət öhdəçiliyindən çıxarılmalıdır. Lakin bu zaman müəssisələr öz xərclərin ödəmək üçün istehsal etdikləri məhsulu özləri satmaq məcburiyyətində qalacaqlar. Məqalədə müəssisədə istehsal edilən məhsulların realizə edilməsi qaydası ilə əlaqədar fikirlər səslənirdi. Burada sual edilirdi ki, əmək haqlarının ödənilməsinə sərf edilən istehsal edilmiş məhsulun taleyi necə olmalıdır? Bu məhsulu kim satmalıdır? Müəssisə administrasiyası, yoxsa fəhlə kooperasiyası? Qarşıya qoyulan suallara

məqalədə cavab olaraq bildirilirdi ki, təsərrüfat hesabına keçirilən müəssisələr istehsal etdikləri bütün məhsulu (*məhsulun əmək haqlarının ödənilməsi üçün nəzərdə tutulan hissəsi də daxil olmaqla*) özləri satmalıdırlar. Çünki fəhlə kooperasiyaları tərəfindən istehsal edilmiş məhsulun bir hissəsinin satılması bütün təsərrüfat planını pozur, əmək haqlarının ödənilməsini ləngidir. İstehsalda əhəmiyyətli faktorlardan olan əmək haqlarının ödənilməsi böyük rol oynayır. Müəssisə rəhbərliyi işlərin gedişatına tam olaraq cavabdeh olmalıdır. Daha sonra sual edilirdi, müəssisə məhsulları azad bazarda satılmalıdır və ya onlar ancaq dövlətə satılmalıdır? Suala cavab axtararkən belə qənaətə gəlinirdi ki, dövlət öz idarələrində bir sıra məhsullara ehtiyac hiss edəcək, məsələn sabun, qida məhsulları, tikinti materialları və s. Lakin dövlət müəssisələrində istehsal edilən bu məhsullar azad bazara birbaşa çıxarıldıqda bazar qiymətləri ilə möhtəkirlərin əlinə düşəcək. Dövlət bu məhsulları əldə etmək istədikdə həmin məhsulları azad bazarda möhtəkirləri faydalandırmaqla təkrar əldə edəcək. Digər tərəfdən müəssisələrin öz məhsullarını birbaşa çıxaracaqları təqdirdə, dövlətin hansı resurslara güvənəcəyi bəlli olmayacaq, bu zaman vahid dövlət təsərrüfat planının işlənilib hazırlanması da mümkün deyil və təklif edilirdi ki, öz məhsulunu satmaq istəyən müəssisə əvvəlcə dövlətə lazım olan məhsulların və materialların uçotunu aparan dövlət orqanına müraciət etsin. Əgər komissiya təklif edilən məhsulları satın ala bilmirdisə məhz  bundan sonra məhsullar bazara çıxarıla bilərdi. Bu vaxt daha münasib olaraq məhsulun satış kooperasiyalarına təqdim edilməsinə daha çox üstünlük verilməsi məqbul sayılırdı. Xüsusi olaraq qeyd olunurdu ki, dövlət tərəfindən satın alınan məhsulların qiymətləri elə müəyyən edilməlidir ki, qiymətlər müəssisənin təsərrüfat hesabını pozmasın. Əlbəttə dövlət bu məhsulları daha ucuz qiymətə də ala bilər. Lakin belə olan zaman müəssisə öz xərclərini ödəməyib zərərlə işləyəcək, istehsal məsrəfləri yenə də dövlət vəsaiti hesabına qarşılığını alacaq. İlk baxışda dövlət tərəfindən ucuz əldə edilən məhsuldan gələn qənaət sonradan dövlət tərəfindən müəssisənin zərərinin qapadılması zamanı heçə endiriləcək.

Məqalədə "mənfəətin" taleyi barədə də fikir söylənilirdi və bildirilirdi ki, istehsal edilən məhsulun mənfəət qismi tamamilə dövlətin hesabına keçməlidir. Hesab edilirdi ki, bunun üzərində müəssisənin heç bir hüququ yoxdur. Məqalədə müəssisə və sahələr arası hesablaşmanın necə olması məsələsi də diqqət mərkəzində idi. Burada göstərilirdi ki, əgər dövlət müəssisələri öz aralarında nağd pulla hesablaşmalar aparsalar, əksər hallarda olduğu kimi qeyri məhsuldar kağız pullarının dövriyyəsi baş verəcəkdir. Əgər hesablaşmalar dövriyyədə olan Əskinaz vasitəsi ilə həyata keçirilsə, xroniki olaraq pul nişanları qıtlığı yaranacaq nəticədə müəssisələr məhsullarını hər zaman istədikləri kimi realizə edə bilməyəcəklər. Vəziyyətdən çıxış yolu kimi ödənişlərin çeklər vasitəsi ilə edilməsi tez bir zamanda Dövlət Bankının açılması və burada müəssisələrin öz hesablarının olmasının vacibliyi göstərilirdi. Daha sonra məqalədə digər suala cavab axtarılırdı. Pərakəndə ticarət olmalıdırmı? Cavab olaraq bildirilirdi ki, bizdə nə texniki, nə kadr hazırlığı səviyyəsi münasib

deyil, qüvvələrin qeyri istehsal sahəsində bu qədər paylanması yol verilməzdir. Ancaq topdansatış ticarət olmalıdır. Ticarətin bu forması bürokratik məzmun daşımamalı, anbarları, şöbə və kontorları olan şəbəkə formalaşmalıdır. Digər sual - ayrı-ayrı müəssisələr ticarətlə məşğul olmalı, yoxsa bu iş ali təsərrüfat orqanlarına həvalə edilməlidir? sualına məqalədə cavab verilirdi ki, mərkəzləşdirilmiş qaydada məhsulun satışı yerlərdə təşəbbüskarlığı məhv edir. Çıxış yolu kimi hər müəssisəyə ticarət etmək hüququ verilməsi qeyd olunsa da, ali təsərrüfat orqanlarının müəssisələrin ticarət fəaliyyətinə nəzarət imkanına malik olmaları da vacib hesab edilirdi. Digər məsələ dövlət müəssisələrində istehsal edilmiş və satış üçün nəzərdə tutulmuş məhsulların ayrı-ayrı təşkilatlarda deyil, bir əldə cəmləşdirilməsi məsələsi idi və bu məsələyə münasibət bildirilərkən qeyd edilirdi ki, bəziləri hesab edirlər ki, bu halda sahələrarası yersiz rəqabət olmayacaqdır. Digərləri isə bunun əksinə olaraq hesab edirlər ki, rəqabət özü-özlüyündə zərərli deyil və onun mövcudluğu səhvlərin aradan tez qaldırılmasını mümkün edir [8, s. 5, №1, 1921]. Göründüyü kimi məqalədə daxili ticarətin labüdlüyü və dövlət orqan və təşkilatlarının nəzarəti altında topdan satış ticarətin daha məqsədəuyğunluğu fikri əsaslandırılırdı. Bu isə öz növbəsində hətta Yeni İqtisadi Siyasət şəraitində sovet etatizminin əsaslandırılmasına xidmət edirdi.

### 6. İqtisadi ədəbiyyatlarda xarici ticarət məsələləri əlaqədar səslənən fikirlər

Bu xüsusda diqqəti "R.M." imzası ilə "İqtisadi Xəbərlər"in 1921-ci ildə noyabrın 15-də 1-ci nömrəsində dərc edilən "Azərxariciticarət və əmtəə mübadiləsi" məqaləsi cəlb edir. Məqalədə qeyd olunurdu ki, kənardan baxanda "Azərxariciticarət" məqsədyönlü, düzənli və mərkəzləşdirilmiş qaydada fəaliyyət göstərən təşkilat kimi görünür. Ölkənin bütün valyuta ilə satılan məhsulları onun sərəncamına verilir, eyni zamanda ölkənin bütün təşkilatları xarici məhsullara olan tələbatlarının ödənilməsi üçün "Azərxariciticarətə" sifariş təqdim edirlər. Bu təsisat ölkə daxilindəki müəssisələrin məhsullarının əcnəbi məhsulları ilə natural mübadiləsini təşkil edir. Lakin hesab edirik ki, köhnə "əmtəə mübadiləsi sərfəlidir "şüarı yerinə" baha satıb, ucuz almaq sərfəlidir" şüarı tətbiq edilməlidir. Köhnə formula yenisi ilə əvəz edilməlidir: "Əmtəə-Pul, Pul-Əmtəə". Hal-hazırda bu sahədə tam qarışıqlıq hökm sürür. Bütün təşkilatlar "Azərxariciticarətə "öz sifarişlərini vermiş və ümid etməkdədirlər ki, onların təqdim etdikləri məhsulların əvəzinə lazımı məhsullar veriləcəkdir. Bu ümidlər doğrulmadı və hamı indi öz xam malını özü satmaq istəyir. Təbii olaraq xarici ticarətdə ən əhəmiyyətli valyuta məhsulu neft və neft məhsullarıdır. "Azərneftə" Amerikada istehsal edilən maşın və dəzgahlar lazımdır, lakin elə ola bilər ki ABŞ-dakı maşınqayırma zavoduna Azneftin neft məhsulları gərək olmasın. Deməli bu zaman ticarət etmək üçün vasitəçilərə ehtiyac vardır. Bu vasitəçi ABŞ-da o qədərdə yerli bazarda tələb edilməyən kerosininizi satıb, əldə edilmiş valyuta ilə Azneft üçün maşınlar alacaqdır. Lakin hər mübadilə iki aktdan ibarət olacaq - 1) bizim məh-

sulların satışı, 2) bizə lazım olan məhsulların alınması. Bütünlükdə əmtəə mübadiləsi 3 mərhələdə həyat keçiriləcəkdir. Çünki tərəflər arasında vasitəçilik edən pulsuz işləməyəcək və “Azərxariciticarətdən“ öz xidmətləri müqabilində pul alacaqdır. Göründüyü kimi ticarətin iki aktlı - “əmtəə-pul, pul əmtəə” formasında olması daha məqsədəmüvafiq olardı. Xarici ticarətdə əmtəə mübadiləsinin yoxsa adi alqı-satqı münasibətlərinin bərqərar olması ən başlıca məsələdir. Məsələnin düzgün həlli ölkənin xarici ticarət əlaqələrinin uğurlu təşkili, digər məhsullarla yaxşı təchiz edilməsindən asılıdır [8, s. 8-10, № 1, 1921].

Digər diqqətəlayiq fikirlər qismində N.Tolstonoqovun 1921-ci ilin mart-sentyabr aylarında Zaqafqaziyada xarici ticarət əlaqələri ilə əlaqədar dəyərləndirmələri göstərilə bilər. O, yazırdı ki, idxal və ixrac göstəricilərini müqayisə edərkən idxal əməliyyatlarının ixrac əməliyyatlarından 6 dəfə çox olduğu müəyyən edilmişdir.

Qızıl pul ehtiyatlarından həmin məhsulların alınması üçün böyük məbləğlər ödənilmişdir. Qərbi Avropa ilə ticarət məhsullarının 85%-i həyati əhəmiyyətli məhsullar, 11,4%-i hazır məhsullar, 3,3%-i yarımfabrikatlardır. Kənd təsərrüfatındakı durum ərzaq məhsullarının ixrac edilməsini tələb edir. Tolstonoqovun narazı qaldığı məqam idxal strukturunda məhsulların 1/3 hissəsini parfümeriya, şampan və digər bu tipli məmulatlar təşkil etdiyi halda, tibbi məhsullar idxalın 1/100 hissəsini təşkil etməsi idi. Xaricə göndərilən məhsulların 79%-ni isə Bakı nefti təşkil edirdi. N.Tolstonoqov hesab edirdi ki, ölkəyə ən yararlı məhsulların idxalı işi qaydaya salınmalıdır. Müharibədən əvvəl təxmini olaraq hər il respublikadan 3700 milyon pud neft, 1 milyon pud meşə məmulatı, 100 min pud biyan kökü ixrac edilirdisə, indi bu göstəricilər demək olar ki yox səviyyəsindədir. Balıq kürüsü, ipək yun, şərab və s. kimi məhsullarda demək olar ki ixrac edilmir [8, s. 9-10, №3, 1921].

Daha sonra 1921-ci ildə dekabrın 22-də “İqtisadi Xəbərlər”in 6-ci sayında “R.M.” imzası ilə “Azərxariciticarətin (*Азвнешторг*) fəaliyyətinin nəticələri “qiymətləndirilmişdir. Məqalədə yazılırdı ki, “Azərxariciticarət” Azərbaycan İnqilabı Komitəsinin tərkibində əvvəlcə xarici ticarət şöbəsi kimi yaradılmışdır. 1920-ci ilin iyulunda Azərbaycan Xalq Təsərrüfatı Şurasının tərkibində ləğv edilən ticarət şöbəsinin səlahiyyətlərini icra etməyə başlamışdır. ”Azərxariciticarətə” sözügedən şöbədən italyan, isveçrə, fransız firmaları ilə bağlanmış 6 müqavilə miras qalmışdır. 1920-1921-ci illərdə “Azərxariciticarət”-in Qərb ölkələri ilə ticarət əlaqələri ancaq xammalın ötürülməsi olmuşdur. Təşkilatın fəaliyyətində ən böyük qüsurlardan biri kimi dünya bazarlarında mövcud vəziyyətlə əlaqədar məlumatın olmaması, idxal və ixrac edilən məhsulların sifarişi və ticarət qaydalarının prinsiplərinin də qeyri müəyyənliyin olduğu bildirilirdi. Məhz bu səbəbdən xarici ticarət əməliyyatlarının zəif təşkil edildiyi göstərilirdi. ”Azərxariciticarətin“ nəhəng bürokratik aparatı əvəzinə çevik işləyən az ştatda işləyən qurumun yaradılmasının vacibliyi fikridə əsaslandırılırdı. Qeyd edilirdi ki, sözügedən komissarlığın 200 nəfər işçisi var. Bu zaman real imkanların dəyərləndirilməsinə əsaslanan idxal və ixrac planı tərtib

edilmir, həddən artıq süründürməçiliyə yol verilir, bəzən ölkəyə idxal edilməsi o qədərdə vacib olmayan məhsullar gətirilir. Buna misal olaraq 1,5 funt sterlinq dəyərində xırdavat məhsulların gətirilməsi göstərilirdi. Xarici ticarət "Azərxariciticarətin" inhisarında olmadığı kimi, bu sahənin nizamlanması da həyata keçirilmir. Bu qurum 15 aylıq fəaliyyəti müddətində Azərbaycana o qədər az şey qazandırıb ki, onun ləğvi belə hiss edilmir və bu sahədə işlər dövlət mənafeyinə əsasən yenidən təşkil edilməlidir [8, s. 21-23, №6, 1921]

Daha sonra diqqəti B.Quxmanın "Bakı yarmarkasının fəaliyyətinin nəticələri" məqaləsi cəlb edir. Məqalədə yazılırdı ki, noyabrın 15-də 2 aylıq fəaliyyətdən sonra Bakı yarmarkası bağlanıldı. Sentyabrın 15-də hələ yarmarkanın açılışı ərəfəsində 37 ticarət firması qeydiyyata düşmüşdü. Onlardan 16-sı dövlət, 2-si kooperativ, 19-u xüsusi firmalar idi. 9 firma Rusiya və yerli, 4 firma İran firmaları idi. 4 firma təsadüfü müqavilələrlə işləyən firmalar idi. Noyabrın 15-də 150 firma fəaliyyət göstərirdi. Bunlardan 28-i dövlət, 2-si kooperativ, 120-si xüsusi firmalar idi. Xüsusi firmalardan 45-i rus və yerli, 16-si İran, 5-xarici, 55-i təsadüfü firmalar idi. Bakı yarmarkasının məqsədi Rusiya, Yaxın Şərq bazarları ilə əmtəə dövriyyəsini qaydaya salmaq idi. Lakin yarmarkanın işində xarici və İran kapitalının iştirakı zəif idi. Mahiyyət etibarı ilə əsasən yarmarkada dövlət və kooperativ firmaları təmsil olunmuşdular. Yarmarkada ticarət dövriyyəsinin həcmi zəif və kiçik idi. İlk Bakı yarmarkasının fəaliyyəti uğursuz oldu. Uğursuzluğun səbəbi isə İran mallarına, Avropa mallarına olan tariflərin müəyyən edilməməsi, dövlət və kooperativ ticarət müəssisələrin tələsik iştirakı göstərilirdi [8, s. 9-11, №22, 1922 ]. Qeyd etmək lazımdır ki, sonrakı illərdə də Azərbaycan SSR-in maddi resurslarının ticarət-iqtisadi əlaqələrdəki yeri və çəkisi məsələləri ilə əlaqədar dəyərləndirmələr olmuşdur. Bu xüsusda diqqəti 1929-cu ildə Moskvada dərc olunan "Azərbaycan" kitabçasındakı fikirlərə yönəltmək yerinə düşərdi. S.S.Krivtsovun redaktəsi ilə bir qrup müəlliflər heyəti tərəfindən tərtib olunan kitabça RSFSR dövlət nəşriyyatının Moskva vilayəti şöbəsi tərəfindən nəşr olunmuşdu. Burada yazılırdı ki, Azərbaycanda əmtəə daşınmalarının 1/3 hissəsi daxili, 2/3 hissəsi isə xarici bazara çıxarılan məhsullardır. Şimaldan Azərbaycana çörək, qənd, çay, fabrik məhsulları, koks, Ermənistandan dəmir və mis, Gürcüstandan isə meşə materialları gətirilir. Azərbaycandan şimal istiqamətinə neft, pambıq, düyü, balıq, meyvə, şərab, gön-dəri, ipək məhsulları göndərilir. Bakı limanı respublikanın təsərrüfat həyatında önəmli yer tutur. Azərbaycandan Həştərxana göndərilən məhsulların 70%-ni neft məhsulları təşkil edir. Bakı şəhəri əhalisi respublikada istehlakçı kütləsi hesab olunur. Burada istehlak məhsullarının 75%-ni gündəlik tələbat məhsulları, 11%-ni isə geyim əşyaları təşkil edir. Kitabçada Bakı yarmarkasının İranla ticarət əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətinə də diqqət yetirilir, lakin bütünlükdə Azərbaycanda ticarət-iqtisadi əlaqələrinin ümumittifaq göstəricilərindən geri qaldığı bildirilirdi. Belə ki Azərbaycanda adambaşına düşən illik ticarət dövriyyəsi 85 manat məbləğində hesablanmış, bu göstəricinin isə ümumittifaq

göstəricilərindən 2 dəfə az olduğu bildirilirdi [5, s. 15-17]. Ümumiyyətlə tədqiq edilən illər ərzində bir çox mütəxəssis dəyərləndirmələrində Azərbaycan SSR-in İranla ticarət iqtisadi əlaqələrinin daha da genişləndirilməsinin vacibliyi fikridə mütəmadi səslənən fikirlər arasında idi. Bu xüsusda diqqəti A.Qulubəyovun fikirləri cəlb edir. A.Qulubəyov "Bakı yarmarkasının növbəti vəzifələri" məqaləsində yazırdı ki, bu yarmarka təzəcə inkişaf etmiş sovet sənayesi ilə İran tacirləri arasında iqtisadi əlaqələrin bərpa edilməsinə əlverişli zəmin yaradır və sonra məqalədə bu əlaqələrin daha da genişləndirilməsi fikri əsaslandırılırdı [7, s. 67-71, №1, 1929].

## 7. İqtisadi ədəbiyyatlarda gömrük işinin təşkili ilə əlaqədar səslənən fikirlər

"İqtisadi Xəbərlər"in 1921-ci ildə çıxan 2-ci nömrəsində "D.Q." imzası ilə dərc edilən məqalədə Zaqafqaziya respublikalarının gömrük işinin təşkili məsələsi ilə əlaqədar Tiflisdə keçirilən konfransın müddəaları dəyərləndirilmişdir. Müəllif yazırdı ki, konfransda Zaqafqaziyanın faktiki olaraq birləşməsi prosesinə başlanılmışdır. Bir sovet respublikasından digər sovet respublikasına əmtəələrin sərbəst daşınması, xarici ticarətin koordinə edilməsi üçün vahid qurumun və ixrac fondunun yaradılması qərara alınmışdır. Lakin hər 3 respublikada mərkəzdənqaçma meylləri mövcuddur. Bunun isə əsas səbəbi respublikaların ancaq bir sahədə birləşmə qərarına gəlmələri olmuşdur. Lakin eyni zamanda hər respublikanın özünəməxsus təsərrüfat orqanizmi, buna uyğun iqtisadi və maliyyə siyasəti mövcuddur. Belə olan təqdirdə respublikalarda ümumi ticarət, ümumi fond maraq yaratmır. Zaqafqaziyanın siyasi və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi lazımdır [8, s. 20-21,№ 2, 1921]

"B.L." imzası dərc edilən məqalədə isə Zaqafqaziyada vahid gömrük siyasəti məsələsi nəzərdən keçirilirdi. Məqalədə yazılırdı ki, Zaqafqaziya iqtisadiyyatı son vaxtlar Avropa və Amerikada istehsal edilən texniki material və məhsulların qıtlığından, ərzaq məhsullarının çatışmamasından çox böyük ziyan çəkir. Elə görünə bilərdi ki, Antantanın blokadanı qaldırması sovet bazarlarına tələb olunan məhsulların daxil olmasına əngəllər olmayacaq. Lakin dövlət öz məhsullarımızdan belə ixrac məhsulların 10%-ni gömrük haqqı kimi alır. Xarici şirkətlər bizimlə əməkdaşlıq etməkdən çəkinirlər. Zaqafqaziya respublikaları arasında münasibətlərin yetərincə nizamlanmaması da çətinliklər törədir. Azərbaycan Amerika və Avropa ilə ticarət əlaqələrini Gürcüstan vasitəsi ilə, Gürcüstan isə İranla ticarət əlaqələrini Azərbaycan vasitəsi ilə qurur. Məqalədə Respublikaların gömrük fəaliyyətlərini əlaqələndirmələrinin vacibliyi qeyd edilməklə yanaşı, ərzaq məhsulları, sənayenin bərpası üçün tələb olunan avadanlıqların, tibbi məhsulların gömrük rüsumlarından azad edilməsi, dəbdəbə və rahatlıq üçün işlədilən məhsulların yüksək gömrük vergisi ilə ixracı və ya bu məhsulların ixracının qadağan edilməsi gömrük sövdələşməsinin birinci maddəsi kimi dəyərləndirilmiş və sovet respublikalarından məhsulların gömrük rüsumları ödənilmədən daşınması iqtisadi əlaqələrin inkişafına müsbət təsir

edəcəyi də bildirilirdi. Digər tərəfdən iddia edilirdi ki, Yeni İqtisadi Siyasət şəraitində tranzit vasitəsi ilə daha çox məhsulların daxil olması üçün həmin məhsullardan ancaq bir dəfə və ilk daxil olduğu ölkədə gömrük rüsumu alınmalıdır. Burada neft, neft məhsulları, xam dəri, balıq kürüsü, ipək, biyan kökü, pambıq və s. kimi inhisara alınmış məhsullar istisna olmaqla dünya bazarlarında tələb olunan məhsulların sərbəst ixrac edilməsinin vacibliyi də qeyd edilirdi [8, s. 10-12, №3, 1921].

Qeyd etmək lazımdır ki, 1921-ci il noyabrın 11-də Zaqafqaziya Respublikalarının gömrük komissiyası işini yekunlaşdıraraq tarif komissiyasının hazırladığı bir neçə protokolları qəbul etdi. Bununla əlaqədar "İqtisadi Xəbərlər"də yazılırdı ki, konfransda qeyri sovet respublikasından Zaqafqaziyadan keçməklə (*ZSR*) digər qeyri sovet respublikasına tranzit yük daşınmalar məsələsi hələ də həll edilməmiş qalır. Valyuta ehtiyatlarının qıtlığı şəraitində tranzit daşınmaları beynəlxalq bazarda ölkənin ixrac əhəmiyyətliliyini artırmış olur. Burada iddia edilirdi ki, tranzit şərtləri əvvəlcədən bəlli olmalı, Avropa-Batum-Bakı-İran və tərsinə marşrutla yük daşınma qaydaları ilə hər kəs tanış edilməlidir. Lakin indiki dönəmdə hər respublikanın öz təsərrüfatı, pulu, ixrac məhsullarının resurs fondları mövcuddur. Təbiidir ki, hər respublika tranzit qaydalarını öz maraqlarına uyğun dərk edir. Belə şəraitdə isə məsələnin həlli qeyri mümkündür [8, s. 12-14, №3, 1921]. Göründüyü kimi səslənən fikirlərdə bütünlükdə respublikaların təsərrüfatlarının birləşdirilməsinin məqsədyönlülüyü, respublikaların və o, cümlədən Azərbaycan SSR-in iqtisadi müstəqilliyinin qəsb olunmasının daha münasibliyi fikrinin əsaslandırılmasına çalışılırdı.

Daha sonra diqqətin M.Məlikovun dəyərləndirmələrinə yönəldilməsi yerinə düşərdi. M.Məlikov 1922-ci ildə "Azərbaycan SSR-də gömrük siyasəti" məqaləsində yazırdı ki, sovet gömrük siyasətinin əsas xüsusiyyətlərinin dəyərləndirilməsi baxımından kapitalist ölkələrinin xarici ticarətlərinin nizamlamaq baxımından gömrük siyasətinə nəzər yetirmək lazımdır. Bəzi ölkələrdə xaricdən o, məhsulların idxalına məhdudiyyət və ya qadağa qoyulurdu ki, bu məhsullarla ölkə daxilində istehsal edilən məhsullar rəqabət apara bilmir, idxal bütünlükdə ölkədə hansısa sahənin inkişafına əngəl törədir. Bu üsul ölkə sənayesinin himayə edilməsini nəzərdə tutur. İnkişaf etmiş sənaye ölkələri rəqabətdən qorxmadıqları üçün azad ticarətə üstünlük verirlər. Dünya müharibəsi illərində İngiltərə istisna olmaqla bütün ölkələr proteksionist siyasəti yürütdürdülər. Azad ticarət siyasəti yürüdən ölkələrdə gömrük vergiləri fiskal məzmun daşıyıb ancaq xəzinə vəsaitlərinin artırılması məqsədini daşıyır. Sovet hökumətinin gömrük siyasəti tamamən fərqli prinsiplərə əsaslanır. Dünya və vətəndaş müharibəsi ölkədə kəskin əmtəə qıtlığı yaratmışdır. Ölkəyə nəinki fabrik məhsullarının, eyni zamanda kənd təsərrüfatı məhsullarının gətirilməsinə ehtiyac var. İdxal ticarəti ya tamamən müvafiq məhsullarla, natural ödənişlərlə, ya da qismən pullu, qismən natural ödənişlərlə aparılırdı. Uğurlu ixrac siyasətinin aparılması üçün ölkə sənayesi, nəqliyyat, pul dövriyyəsi sistemi bərpa edilməlidir. Sabit gəlir mənbəyi yeni pul nişanlarının çap edilməsindən ibarət olmamalıdır.

M.Məlikov yazırdı ki, ölkədən çıxarılan məhsullara vergilərin qoyulması, ancaq xarici istehlakçıya təsir edə bilər, lakin ölkəyə gətirilən məhsullara vergilərin qoyulması bir tərəfdən daxili istehlakçıya təsir edər, digər tərəfdən ölkəyə məhsul gətirilməsinə marağı qismən azalda bilər. Zaqafqaziya Federasiyası yaradıldıqdan sonra Azərbaycanın gömrük siyasəti İranla ticarət əlaqələri ilə məhdudlaşır. İranda dövriyyədə metal, sabit valyuta nişanları dövriyyədədir. Azərbaycan İran bazarlarına şüşə, dəmir parçaları, kerosin və s. çıxara bilər. Dəmir yolu nəqliyyatının yarıtmaz vəziyyəti ABŞ, Almaniya, İngiltərə məhsullarına İran bazarında Azərbaycan məhsulları ilə rəqabət aparmağa imkan vermir. Məhz bu baxımdan İrana ixrac edilən məhsullara gömrük haqqının qoyulması müştərini qaçırmayacaq. Digər tərəfdən ölkədə İran məhsullarına böyük tələbat var, bu məhsulları, sabit valyuta ilə və yüksək qiymətlərlə almaq lazım olacaq, lakin İran məhsullarının ancaq Xəzər dənizi vasitəsi ilə hazırkı vəziyyətdə bazarlara çıxarılması mümkün olduğundan bu idxal olunan məhsullara gömrük vergilərinin qoyulması onları digər bazarlara yönəltməyəcək. Məhz bu baxımdan M.Məlikov İranla idxal-ixrac əməliyyatları üzərində yüksək gömrük vergisinin qoyulmasını məqsədəuyğun hesab edirdi [8, s. 20-22, №8, 1922].

## Nəticə

Göründüyü kimi, XX əsrin 20-ci illərinin əvvəllərində həyata keçirilən daxili və xarici ticarət, gömrük işinin təşkili siyasəti bütünlükdə Azərbaycan Respublikasının maddi resurslarının istismar olunmasına, respublikanın hətta iqtisadi müstəqilliyinə son qoyulmasına xidmət edirdi. Həyata keçirilən iqtisadi siyasət öz məzmununa görə sovet kolonial ekspansionizmi və proteksionizmin xüsusi bir növü kimi qiymətləndirilə bilər və iqtisadi ədəbiyyatlarda da bu mövqe diqqəti cəlb edir. Uzun illər ərzində sovet tarixi və iqtisadi ədəbiyyatlarda həyata keçirilən iqtisadi siyasətin kurs və məzmununa tariflər yazılsa da mövcud rejimin milli respublikalarda və o, cümlədən Azərbaycan SSR-də həyata keçirdiyi iqtisadi siyasət sovet kolonializmindən başqa bir şey deyildi. İnkişaf etməkdə olan sovet demokratiyası əslində etatizmdən totalitarizmə qədər müəyyən yol keçmişdir.

### Ədəbiyyat siyahısı


1. Bünyadov Q.H. Bərpa dövründə Azərbaycanda Sovet ticarətinin yaranması və inkişafı. Bakı: Elm, 1971, 130 s.
2. Nuriyev C. Azərbaycanın gömrük tarixi, Bakı: 2009, (75 s.), s. 21-17
3. Zeynalov K.Ş. Azərbaycan SSR-in ticarət və iqtisadiyyatında xüsusi təsərrüfat kapitalist ukladı və onun sıxışdırılması məsələləri (1921-1928). D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Əsərləri, Bakı: 1972, №4, s. 33-37
4. Бунятов Г.А. Создания и развитие Советской торговли в Азербайджане в период 1921-1925 гг. (Автореферат диссертации на соискание ученой степени кандидата экономических наук), Баку: 1967, 26 с.
5. Кривцов С.С. Азербайджан. М-Л., “Московский рабочий”, 1929, 103 с.
6. Отчет о деятельности АСНХ, Баку: 1920, 141 с.
7. “Экономический вестник Азербайджана” (орган Высшего Экономического Совета и Государственной Плановой Комиссии Азербайджанской ССР), Баку: 1929, №1, №2-3, №4, №6-7, №8, стр.12-20
8. “Экономический вестник” (Еженедельный орган Высшего Совета АССР), Баку: 1921, №1,№2, №3, №6, 1922, №8, №22, 1924, №3, №4, №7

**Самандаров Сейфаддин Сабир оглы**
доктор философии по экономике, Институт Экономики НАНА

## Оценка внутренней и внешней торговли, организации таможенного дела в начале 20-х годы XX столетия в Азербайджане

**Аннотация**

*Целью исследования* - является исследование оценок организации внутренней и внешней торговли, таможенного дела в начале 20-х годов XX столетия в Азербайджане (*Азербайджанской ССР*)

*Методология исследования* - аналитические методы: синтез и дедукция.

*Результат исследования* - создание условий для изучения истории развития экономической мысли в Азербайджане.

*Ограничения исследования* – оценка исторических фактов в соответствии с современными критериями.

*Практическая значимость исследования* – изучение международного опыта в организации таможенного дела, внутренней и внешней торговли.

*Оригинальность исследования и научная новизна* - исследуемая проблема, некоторые факты впервые вводятся в научный оборот.

**Ключевые слова:** *экономика Азербайджана, внешняя торговля, внутренняя торговля, таможенное дело, протекционизм.*

**Samandarov Seyfaddin Sabir oglu**
Phd in Economics, Institute of Economy in Azerbaijan National Sciences Academy

## Appreciations about internal and foreign trade and organization of customs in beginning of the 1920th years in Azerbaijan

**Abstract**

*Purpose* - analysis of the discourses about internal and foreign trade and organization of customs in beginning of 1920th years in Azerbaijan.

*Methodology* - analytical methods, synthesis and deduction method.

*Finding* - created fortune circumstances for study of historical development of Azerbaijani economic thought.

*Research limitations* - some difficulties which are bound by appreciations of historical facts with correspondence to modern criterion.

*Practical implications* - usefulness of the history experience in internal and foreign trade and customs deal.

*Originality* - investigated problem is entered for the first time into scientific turn at the present stage of reforms.

**Key words:** *Azerbaijan economy, foreign trade, domestic trade, customs, protectionism*

**JEL Classification Codes:** A11, B21, F1

Məqalə redaksiyaya daxil olmuşdur: 18.01.2012.
Təkrar işləməyə göndərilmişdir: 24.01.2012.
Çapa qəbul olunmuşdur: 11.04.2012.